# Daha bir AXCP fəalının saxlandığı bildirilir

29 dəqiqə öncə




Elmar Piriyev

AXCP daha bir fəalının saxlandığını bildirib. Partiyanın Tovuz rayon şöbəsinin fəalı **Elmar Piriyev**in 10 sutka müddətinə inzibati qaydada həbs edildiyi açıqlanıb.

Bundan əvvəl E.Piriyevin iyulun 27-də Tovuz rayon polis şöbəsinə çağrıldığı və yaxınlarının onunla əlaqə saxlaya bilmədiyi xəbəri yayılmışdı.

E.Piriyevin Tovuz rayonunda əvvəllər də siyasi fəaliyyətinə görə inzibati qaydada həbs olunduğu bildirilir.

+++

23 iyul




Kənan İsmayıl

Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) daha bir üzvünün saxlandığını bildirir.

Partiyanın yaydığı məlumata görə, Xətai rayon Şöbəsinin üzvü **Kənan İsmayılı** polis əməkdaşları saxlayaraq Nizami rayon Məhkəməsinə aparıb.

**"Məhkəmənin qərarı ilə Kənan İsmayıl polisə müqavimət göstərmə və polisin qanuni tələbinə tabe olmama ittihamı əsasında 30 sutka müddətinə inzibati həbs cəzasına məhkum edilib"**, – AXCP bildirir.

K.İsmayılın bu ittihamlara münasibəti hələlik açıqlanmayıb.

AzadlıqRadiosu ittihamlarla bağlı əlavə informasiya əldə edə bilməyib.

AXCP sədri də daxil, bu müxalif partiyanın hazırda 15-dən çox üzvü həbsdədir. Partiya onların hamısının siyasi sifarişlə həbs olunduğunu açıqlayıb.

Hüquq-müdafiə təşkilatlarının hazırladıqları siyahıya görə, indi Azərbaycanda 328 nəfər siyasi məhbus var.

Azərbaycan rəsmiləri isə ölkədə siyasi məhbus olması barədə deyilənlərlə razılaşmır və vurğulayırlar ki, adları siyasi məhbus siyahısında yer alan şəxslər törətdikləri cinayətə görə mühakimə ediliblər.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur